*Azərbaycan Milli Elmlər Akademiyasi M. Füzuli adına Əlyazmalar Institutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 10, 2024*
*Səh.327-333*

https://doi.org/10.62837/2024.10.327

**XURAMAN QƏDİMOVA**
*filologiya üzrə fəlsəfə doktoru*
Akademik Z.M.Bünyadov adına Şərqşünaslıq İnstitutu
*E-mail: xuramanqedimova@mail.ru*

# MİLLİ ƏDƏBİYYAT DÖVRÜ SƏNƏTKARLARINDA MİLLİ DÜŞÜNCƏ VƏ TƏNQİD

**Annotasiya**. Milli ədəbiyyat dönəmi Türk ədəbiyyatında türkçülük düşüncəsinin özünü açıq-aşkar biruzə verdiyi, bütün gücü ilə ortaya çıxdığı bir dövrdir. XIX əsrdə Osmanlı İmperiyasının ziyalıları arasında formalaşan türkçülük düşüncəsi yeni qurulan türk dövlətinin əsas elementlərindən biri olmuşdur. Bu dövrdə xüsusilə də Ziya Gökalp (1876-1924) türk millətçiliyinin nəzəri əsaslarını yaratmış, Yakup Kadri Karaosmanoğlu (1889-1974) isə Cumhuriyyət dövrünün ilk illərində inqilabi ədəbiyyatın öncüllərindən olmuşdur. Türk ədəbiyyatında Anadolu həyatının bütün yönləri ilə əks olunması və məmləkət insanının nəsrə gətirilməsində Reşat Nuri Güntekinin (1889-1956) də mühüm rolu vardır. Bu müəlliflərin Türk nəsrinə verdikləri töhvələrlə yanaşı, tənqidin bir janr kimi Türk ədəbiyyatına daxil olmasında da əməkləri danılmazdır. Həmin dövrdə tənqid daha çox milli və sosial məsələlərə əsaslanırdı. Sənətkarlar heca və əruz, dilin sadələşdirilməsi, ədəbiyyatın milliliyi haqqında müzakirələr aparır, mübahisə edirdilər. Divan ədəbiyyatının mərkəzləşdiyi müzakirələrdə milli ədəbiyyat sənətçiləri də iştirak edirdi.

***Açar sözlər***: Milli ədəbiyyat, türkçülük, tənqid, Ziya Gökalp, Reşat Nuri Güntekin, Yakup Kadri Karaosmanoğlu

Milli ədəbiyyat dövrü yeni qurulan Türk dövlətinin milli mədəniyyətinin təşəkkül tapıb formalaşmasında mühüm rol oynamışdır. Osmanlı İmperiyasının çöküşü ilə izlənən tarixi dövr ölkənin bütövlüyünü qorumaq üçün irəli sürülən ideyalardan biri olan türkçülük milli dövlət anlayışını dəstəkləyən mühüm təməllərdən olmuşdur. Ölkənin yaşadığı siyasi vəziyyət ədəbi düşüncəyə birbaşa təsir edərək yeni yaranan ədəbiyyata yön vermişdir. Bir çox ədəbi nümunələr milliyətçilik anlayışını əsas götürən mövzuların üzərində qurulsa da həmin tarixi dövr üçün məsuliyyət daşıyan Osmanlıya qarşı da yazılmışdır. Bu reaksiya eyni zamanda divan ədəbiyyatına qarşı, ənənəvi poeziyanı inkar kimi meydana çıxmışdır.

**Ziya Gökalp.** Türk milliyyətçiliyinin fikir babası olaraq qəbul edilən Ziya Gökalp "Yeni lisan" adlı məqaləsi ilə türk dili ilə bağlı yeni bir çığır açmış ziyalılardandır. Türk ədəbiyyatı ilə bağlı əsərlərində Osmanlı İmperiyasının dağılması, milli iqtidarın qurulması və keçid dönəmlərində keçmişin köklü bir dəyişikliyə məcbur olmasında israr edən yazar eyni zamanda bu prosesdən yan keçməyin mümkün olmadığını da əsaslandırırdı.

Gökalpın tənqidlə bağlı fikirləri olduca düşündürücüdür: "İbda[1] dövründə tarixlə əlaqəni kəsmək, yenilənmə dövründə ənənələri qeyzlə baltalamaq vacibdir. Bu keçici eyforyadır və hər ihtilal, hər inqilab, hər islahat təkamülün zəruri dağıdıcı mərhələsinə tabedir. Gəlin bundan qorxmayaq, çünki bu, təsadüfidir. İnşaa üçün məhv etmək dünyanın ən qanuni halıdır. Yazar divan ədəbiyyatının bəlkə də yox hesab edilməsini yeni dövlətin ədəbiyyatının yaranması üçün vacib bir amil kimi dəyərləndirir və müydana çıxan sərt ədəbi manevrləri müdafiə edirdi.

Bununla belə, dillə bağlı düşüncələrində bu qədər sərt və kəskin davranmırdı. Ziya Gökalp "Türkçülüyün tarixi" adlı əsərində dildə tasviyyəcilərə-likidasyonizmçilərə- inkarçılara dair düşüncələrini açıq şəkildə ortaya qoymuşdur [4, s. 359-361].

Gökalpın tasfiyəciləri tənqid etdiyi təməl nöqtələrdən birincisi oonların əsgi dillərdən işlək olmayan, unudulmağa üz tutmuş kəlmələri dilə gətirməyə çalışmalarıdır. O, xalqın işlətdiyi canlı dildə qarşılığı olan kəlmə yoxdursa, o zaman mövcud dillərdən müvafiq kəlmənin alınması lazımdır, deyir [3, s. 482].

Gökalp 1911-ci ildə Ali Canib və Ömər Seyfəddin liderliyində "Gənc qələmlər"i müdafiə edərək "dildə və ədəbiyyatda milli kimliyə dönüş" düşüncəsini mənimsədiyini nümayiş etdirmişdir. O, ədəbiyyatı milli şüurun aşılanması vasitəsi kimi görüb türkçülük üzərində dayanmş və öz düşüncələrini xüsusilə publisistikasında dilə gətirmiş, "bu şəkildə bizim, Türkiyə dövlətinə, İslam ümmətinə, Türk millətinə mənsûb olduğumuz anlaşıldı" – söyləmişdir. Onun fikrincə, içtimaiyyət elmi bizə cəmiyyətin millətdən, millətin isə eyni mədəniyyətə malik fərdlərdən ibarət olduğunu göstərir. Və sual verir: – Yaxşı, bizim millətin sərhədləri nədir? Cavab isə aydındr: – Bizim də millətimizin hüdudu nə dövlətin, nə ümmətin, nə də irqin sərhədləri ilə məhdudlaşmır. Millət, bu zümrələrlərdən büsbütün fərqlidir. Başqa sözlə, "harsı[2] zümrə"dən – mədəni qrupdan ibarətdir. Harsın zahiri əlamətləri (dilində/dinində) olduğundan, məlumdur ki, millətimiz türkdilli müsəlmanlardan təşkil olunub. Türkçülərin elmi üsullarla ortaya çıxartdığı bu nəzəriyyəni Anadoludakı kəndlilər "dili dilimə, dini dinmə uyan" düsduru ilə tərif edirdilər. Türkçülük millətin tərifini kəşf edincə Anadoludan etibarən bütün azərbaycanlıların, krımlıların, kazanlıların, türkmənlərin, sartların, özbəklərin, qırgızların, kaşgarlıların türkcə danışdığını və müsəlman olduğunu nəzərə alaraq bunların hamısının böyük bir qövm olduğunu, yalnız bir-birindən uzaq olduqları üçün yazı lisanları və ədəbiyyatları müştərək deyildir, nəticəsinə gəlmişdir. O halda, ilk öncə İstanbulda xalqın danışdığı türkcəni və bu türkcəyə istinadən formalaşacaq ədəbiyyatı bütün bu Türk qövmünə qəbul etdirmək lazım gələrdi. Bu fikir müxtəlif Türk bölgələrinə mənsub aydınlar tərəfindən qəbul edildiyi üçün Türkçülüğün ilk

[1] *İbda* – ixtira, icad, kəşf.
[2] *Hars* – örf, adət, gələnək.

şüarı oldu [5, s. 482]. Gökalp İstanbul türkcəsinin Türk dünyasının ortaq dili kimi götürülməsini söyləyir və bu prosesin bütün türklərin birləşdircəyini düşünürdü.

Böyük mütəfəkkür Ziya Gökalpın türklük düşüncəsində Qərbin xristian istismarına qarşı kəskin bir etiraz da vardır:

*İngilis gəsb etdi Sultan Osmanı,*
*Bununla tutacak Hindi, Ammanı,*
*İslamlık tanıdı kimdir düşmanı,*
*Çox keçməz ki, məsud bir an olacaq:*
*Düşməndən öc alan Quran olacaq!* [3, s. 90]

Turan ideyasını onu həyata bağlayan aşiq və ideal kimi qələmə verdiyi bir çox şeirlərində Ziya Gökalp bu idealı özü üçün bir güc və ümid qaynağı kimi qəbul edirdi.

*Canan kim, o gözlə görünməz pəri,*
*O Aydır ki, könüllərdə parlar izləri.*
*Göy üzündə ararkən mən o dilbəri,*
*Göydə yox, yerdə tapdım – Turanda* [3, s. 61-62].

Ziya Gökalp Turan idealı üçün çalışan Mehmet Emin Yurdakula hədiyyə etdiyi "Kızılelma" kitabında ona "Ey Turan Yalvacı" deyə müraciət etmiş, onu peyğəmbər kimi görmüş və bu şeiri də ona ithaf etmişdir. Ziya Gökalpa görə Turan müqəddəs yoldur və o, bu yolda Yurdakulu özünə yoldaş görür [8, s. 66].

*Altaya çıxaraq Tanrıya varan,*
*Oğuz xan ağzından yasanı dərən,*
*İgidin sazını alıb gətirən,*
*Qövmünə həm kitab, həm rübab verən,*
*Ey Turan Yalvacı, sizə bir bağban,*
*Bizə Qızıl almanı edər ərməğan!* [3, s. 316]

O, "Turan" idealını təkcə "Turan"la deyil, "Böyük əməl", "Böyük iş", "Qızıl alma", "Türk qanunu" kimi anlayışlarla izah etməyə çalışmış, şeirlərini də bu çərçivədə yazmışdır. "Qızıl alma" sözü ilə başlasaq, ilk növbədə, Şəmsəddin Sami bunu "Roma şəhərinə verilən ad" kimi ifadə etmişdir. İbrahim Peçevi isə tam olarak Qızıl almanın harda olduğunu bilmədiyini, Qızıl Kaponaya (Qərbi Roma) bu adın verildiyini söyləmişdir.

**Reşat Nuri Güntekin**. Milli ədəbiyyat və Cümhuriyyət dövrünün nüfuzlu yazarlarından olan Reşat Nuri mövzusunu Anadolu insanın həyatından alan əsərləri ilə milli ədəbiyyatın inkişafına böyük xidmət göstərmişdir. O həm də çoxlu sayda tənqidi məqalənin müəllifidir. Reşat Nurinin fikrincə, "tənqidçinin yaxşı bədii təhsili, müəyyən ədəbi zövqü olmalıdır, mətnin onda buraxdığı təəssüratları şərh etmək üçün sənət bilgisi ilə bərabər həm də realist və analitik düşüncə tərzi olmalıdır" [7].

Reşat Nuri "Milli edebiyat mecmuası" jurnalında yayınlanan məqaləsində ədəbi çevrələrdə öncəki müzakirələrin klassik və yeni ədəbiyyat arasında olduğunu, indiki

mübahisələrin isə milli ədəbiyyat çərçivəsində aparıldığını ifadə edir. Ədəbi mübahisələrdən biri "vəzin və lisan məsələsidir". Onun düşüncəsinə görə heca uzaq keçmişin əruz isə daha yaxın keçmişin vəznidir. Əruz Türk ədəbiyatına zorla gətirilib, deyilsə də nəticə olaraq altı yüz il ədəbiyyatı öz təsiri altında saxlamışdır. Nuriyə görə, əruz kəlmələrin, hərflərin quruluşuna nüfuz edərək onları xəfif, ağır, sürüklənən, çırpınan, nəfəs alan nəhayət hərəkətlərlə canlandıraraq, qəlbimizin atışları və ahəngi arasında uyum yaradaraq bir növ musiqi ortaya çıxarmışdır. Hətta onun ahəngi, danışıq dilimizə belə təsir etmişdir. Gözəl Türkçəni ən gözəl söyləyənlər, onun kəlmələrin və cümlələrin axışına daxil etdiyi gizli musiqinin fərqində olmayaraq bu yolu izləməkdədir. Heca da zamanla böyük ustadların əlində işlənərək bəlli bir ahəng qazana bilmişdir. Ona görə də professsor Ercilasun üslub məsələsi barədə yazırdı: İşıqlı və təmtəraqlı üslubun ömrü artıq bitdi, bundan sonra üslub bütün özəlliyini ifadə etdiyi fikirlərin təbiliyindən alacaq və söz bir daha söz üçün işlənməyəcək. Məncə, gələcəyin dili ən incə detalları və ən dəyişkən rəngləri ilə mənəviyyatımızı tərcümə edəcək canlı, çevik bir dil olacaqdır [2, s.134].

Professor Ercilasuna görə Reşat Nurinin sənətlə bağlı mövqeyi belədir: Sənət tamamilə azad olmalıdır, o, təsnif etmək, nəticə çıxarmaq kimi ümumi məntiqi mülahizələrdən, filan ölkədən, filan sənətdən ilham alıb-almamaq kimi adi qayğılardan azad olmlıdır. Ta ki, ruhumuz qeyri-ixtiyari zənginliklərinə bir-birini üzə çıxarmaq imkanı verə bilməlidir. Yoxsa bir qayda-qanunla, bir məqsədə xidmət etməklə, ruhumuzun ilkin mənəviyyatını tanımadan şeir yazmaq özünü uğursuzluğa məhkum etmək deməkdir. İstanbulludan bir dəvə şeiri soruşun. Bəlkə də yazıq dəvənin şəklini özü görüb. Onun haqqında bir az məlumatı var, bir az da elmi biliyi var. Deməli, onun zorla yaza bildiyi şey dəvələrin yanmış səhralarda kürəklərindəki hörgəci yellədərək məlul-məlul getdikləri, qara gözlərini səhra qızlarının öpdüyünü deməkdən başqa bir şey olmayacaq. Halbuki çöl uşaqlarının qan yaddaşında ona (dəvəyə) dair doğulduğu gündən saysız-hesabsız arzular, xatirələr, məşğuliyyətlər var. O, hər kəsin fərqli zehni, fərqli əsəbləri, fərqli davranış tərzi olduğunu etiraf etsək də, nəticələrin bir-birindən az-çox fərqli olduğunu da qəbul etməliyik, bunu tənqid üçün təbii görməliyik – deyir. Tənqidi fərqliliyi sərvət kimi qəbul edən Reşat Nuri zövqlərdəki fərqliliyi əsərin mahiyyətinə uyğun görsə də, bu yanaşmanın hər kəsin tənqid edə biləcəyi mənasına gəlmədiyini, tənqidçinin zövqünün və analitik düşüncəsinin olmasını, eləcə də gözəl, bədii nizam-intizamla kristallaşmış ağıl gərəkdiyini bildirir [2, s.135].

**Yakup Kadri Karaosmanoğlu**. Yaradıcılığın ilham olduğunu söyleyən Yakup Kadri "bizə söyləyən şair deyildir, biz şairi söylədirik" deyirdi. Onun fikrincə şair təbiət kimidir. O, özündə gizlənən sərvət və gözəllik xəzinəsini ancaq onu kəşf etməyi bacaranlara verir. Sənət əsərini başa düşmək və dinləmək səbəbini də müəllifinin dühasından ziyadə, onu seyr edənin dünyagörüşündə, zəkasında axtarmaq lazımdır. Bu baxımdan demək olar ki, bir şah əsərin uğur qazanmasında daimi rol

oynayan camaatın ən mühüm amili xalqın ruhu və müdrikliyidir. Kadri haqlı olaraq soruşurdu: – Şekspirin XVI və XVII əsrlərdəki “Maqbet”i bugünkü Maqbet deyilmi? Bunun ölümsüz bir əsər olduğunu anlamaq iki-üç əsrmi çəkdi? Qədim Latın şairi Horatiusun dediyi kimi, ədəbi əsərlər bəzi şərablar kimi yaşlandıqcamı yaxşılaşır? Şübhəsiz ki, yox! Şekspir teatrı bütün əzəmətli və uca niyyəti ilə xalqın heyran gözləri qarşısında bütün varlığı ilə aydın bir şəfəq işığı kimi ictimai şüurun oyanmasını gözləyirdi. Bu şəfəq işığının nəhəng sənət əsərini ortaya qoyduğu gündən bəri Şekspir sevgisi bütün mədəniyyət dünyasında rahibləri, ümumiyyətlə din xadimlərini və fədailəri ilə yeni bir dindir. Horatius öz əsərinə: “Haydı get, sən artıq mənim deyilsən!” – deyə xitab edir, onu xalqın ixtiyarına verirdi. Müasir fransız şairlərindən biri özü üçün: “Mən suya daş atan adamam” deyir. Burada su toplumun ruhu anlamında deyilmi? Şair hovuz kənarında əylənən uşaq kimi bu suya daş atır və hər daş öz ağırlığına və ölçüsünə uyğun fərqli halqalar yaradb, fərqli səslər çıxararaq suyun dibinə enir. Ey türk şairi! Sənin daş atdığın yer heç vaxt dalğalanmayan, səs çıxarmayan qaranlıq və kimsəsiz bir boşluqdur [6, s. 75-76]. Yakup Kadri fransız ədəbiyyatının tənqidlə ortaya çıxdığını söyləyir və gənc şairlərə qələmindən əvvəl ruhlarını itiləməyi tövsiyə edir, bunu ancaq tənqid və imtahanla bacara biləcəklərini deyir [9, s 2].

Cümhuriyyətin elanından sonra inkişaf edən və yenə də milli dəyərləri özündə ehtiva edən Türkiyə ədəbiyyatı özünü təsdiq edə bildi. “Yeddi Meşale”çinin fikrincə, “Bizim yazılarımızda nə dünənin cılız və solğun izlərinə, nə də son zamanların rəngsiz və monoton Ayşə, Fatma nəğmələrinə rast gələ bilməzsiniz” [1, s. 91]. Cümlələrilə mövcud ədəbiyyatdan usandıklarını anlatdıkları 1928-ci il tarixli “Yeddi Meşale” ədəbi qrupunun yazıları yayınlanan eyni adlı jurnaldakı yazılara görə, milli mübarizə qəhrəmanı, Türkiyə Cümhuriyyətinin qurucusu Atatürkün ölümü və II Dünya Müharibəsinin formalaşdırdığı yeni dünya düzənini əks etdirən ədəbi fəaliyyətlərin başladığı 1938-1939-cu illərə qədər başqa bir ədəbi proses başlayır. Deyildiyi kimi, bu ədəbiyyatı yaradan bəzi şərtlər əvvəlki sənət dövründən miras qalmışdır. Ancaq bu ədəbiyyatda Qurtuluş Savaşı (1919-1922), Mustafa Kamal Atatürk, Anadolu xalqı və Anadolu romantizmi yer almışdır. Lakin millətçilik hərəkatının ən böyük missiyası müstəqil dövlətin qurulması və möhkəmlənməsi özünəməxsus ədəbiyyat yaratmaq üçün onun keçdiyi prosesi əks etdirən ədəbi cərəyan yaratmağı şərtləndirir. Etnik ədəbiyyatla bağlı yazıları ilə tanınan yunan tənqidçi Gregory Jusdanisin fikirləri də diqqətəlayidir: “Bir millətin millət olması üçün iki məqam vacibdir: sərhədlərini genişləndirmək və öz ədəbiyyatını yaratmaq... Millət yalnız fiziki sərhədlərini deyil, həm də mənəvi sərhədlərini genişləndirməlidir [5, s 76]. Bu, Cümhuriyyət dönəmində “Yeni dil hərəkatı” ilə baş verdi [10, s. 202]. Yakub Kadri milli dövlətin ancaq milli ədəbiyyat anlayışı ilə qurulacağını ifadə etmiş və tənqidlə bu çərçivədə məşğul olmuşdur.

## NƏTİCƏ

Milli ədəbiyyat dövrü ulusal ədəbiyyatın formalaşmasında aparıcı rol oynamışdır. Sənətkarların divan və Tənzimatla başlayan yeni ədəbiyyat anlayışları ətrafında davam edən müzakirələr aktual, gündəmi müəyyən edən dil və milli ədəbiyyat anlayışına çevrilmişdir. Balkan savaşlarından sonra güçlənən Türk milliyətçiliyi sosial faydanı əsas götürən milli ədəbiyyatı meydana gətirmişdir.

Osmanlının parçalanması və itirilmiş torpaqlardan Tükiyənin əlində qalan Anadolu torpaqlarına yönəlmiş milli ədəbiyyat anlayışında tənqid daha çox ədəbiyyatın inkişafı üçün faydalı vasitə hesab olunurdu. Ziya Gökalp tənqidində milliyyət və milli dilə, Yakup Kadri inqilab ədəbiyyatına üstünlük verərkən, Reşat Nuri Güntəkin bilavasitə ədəbi tənqidin mahiyyətinə, necəliyinə diqqət yetirmiş, tənqiddəki fərqləri vurğulamışdır.

## ƏDƏBİYYAT

1.*Emiroğlu Öztürk*. Türkiye'de Edebiyat Toplulukları, Warsaw. 2001.
2.*Ercilasun Ahmet Bican*. BİLGE, II.Meşrutiyet Döneminde Tenkit.
3.*Gökalp Ziya*. Külliyatı-I Şiirler ve Halk Masalları (Haz: Fevziye Abdullah Tansel), Ankara: TTK Yayınları, 1989.
4.Gökalp, Ziya,1923.
5.*Jusdanis Gregory*. Gecikmiş Modernlik ve Estetik Kültür, 1998, Metis Yay, İstanbul.
6.Piyale, 1928, Ahmet Haşim, Bütün Şiirleri Piyale Göl Saatleri Diğer Şiirleri, hzl.İ.Enginün.
7.*Reşat Nuri Güntekin*. Tenkitten Ne Bekliyoruz?. Dersaadet Gazetesi, nr 10, 17 Temmuz 1920.
8.Turan Ülküsü Etrafında Şiirlerini Yazan Şair: Ziya Gökalp'in Şiirlerine İdeolojik Bakış. İsmail Turan TÜRKDİLİ TEMMUZ 2019.
9.*Yakup Kadri Karaosmanoğlu*. Bir Şair Naıl Yetişir?, İkdam, nr 9019, 25 Nisan 1922.
10. Yeni Türk Edebiyatı, Ramazan Korkmaz, 2012, Ankara , Grafiker Yay.
Z.Keirman,İstanbul, Dergâh, 6b, 2003.

**Khuraman Gadimova**

## NATIONAL THOUGHT AND CRITICISM IN ARTISTS OF THE NATIONAL LITERATURE PERIOD

### Summary

The period of national literature is a period in which the Turkic concept manifests itself in Turkish literature and emerges with all its strength. The concept of Turkism, formed among the intellectuals of the Ottoman Empire in the 19th century, became the main element of the newly established Turkish state. The period of national literature was the driving force in the formation of the concept of national

literature. In this period, especially Ziya Gökalp is considered one of the theorists of Turkish nationalism. Yakup Kadri is one of the pioneers of revolutionary literature- the first years of the republic period. Reshat Nuri has an important place in the reflection of Anatolian life in Turkish literature and in bringing countryman in prose. In addition to the contributions of the authors to Turkish prose, their contribution to the inclusion of criticism as a genre in Turkish literature is undeniable. During this period, criticism was based on national and social issues. Artists argued about syllables and words, simplification of language, nationality of literature. Artists of national literature also took part in discussions centered on divan literature.

***Key words***: National literature, Turkishness, criticism, Ziya Gokalp, Reshat Nuri Guntekin, Yakup Kadri Karaosmanoghlu

**Хураман Гадимова**

**НАЦИОНАЛЬНАЯ МЫСЛЬ И КРИТИКА У ХУДОЖНИКОВ ПЕРИОДА НАЦИОНАЛЬНОЙ ЛИТЕРАТУРЫ**

***Заключение***

Период национальной литературы – это период, когда тюркская концепция проявляется в турецкой литературе и выступает со всей своей силой. Концепция тюркизма, сформировавшаяся среди интеллигенции Османской империи в XIX веке, стала основным элементом вновь созданного турецкого государства. Период национальной литературы явился движущей силой в формировании понятия национальной литературы. В этот период Зия Гёкальп можно считать одним из теоретиков турецкого национализма. Якуп Кадри — один из пионеров революционной литературы первых лет республиканского периода. Решат Нури занимает важное место в отражении анатолийской жизни в турецкой литературе и в построении соотечественника в прозе. Помимо вклада авторов в турецкую прозу, неоспорим их вклад в включение критики как жанра в турецкую литературу. В этот период критика основывалась на национальных и социальных вопросах. Художники спорили о слогах и словах, упрощении языка, национализме литературы. В дискуссиях, посвященных диванной литературе, также принимали участие деятели национальной литературы.

***Ключевые слова***: Национальная литература, тюркизм, критика, Зия Гёкалп, Решат Нури Гюнтекин, Якуп Кадри Караосманоглу.

**Redaksiyaya daxil olma tarixi: 11.10.2024**
**Çapa qəbul olunma tarixi: 24.10.2024**
**Rəyçi:** Filologiya üzrə fəlsəfə doktoru **Kifayət Məmmədova tərəfindən çapa tövsiyə olunmuşdur**